BAKI XƏBƏR

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

## VIII. Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

Zaman ağır yaralar vurub ürəyimizə. Bu yaralar o qədər çoxdur ki, onu sağaltmaqda acizik. Xalqın düşünən beyinlərinə, xalqın balalarının xoş gələcəyi üçün çırpınan ürəklərə o qədər güllələr dəyib ki... Bu güllələrin yeri yalnız bizim təmənnasız məhəbbətimizlə örtülə bilər. Azərbaycanda maarifçilik və elm hərəkatının başında duran şəxsiyyətlərimizin yaşadığı dövrdə min bir məşəqqətə sinə gərdiyi, xalqın haqq işi uğrunda təmənnasız, heç nə gözləmədən özünü qurban verdiyi məlumdur.

# Böyük maarifçi, Qazax Müəllimlər Seminariyasının yaradıcısı Firudin bəy Köçərli...



Bu şəxsiyyətlər təhsilimizə, elm tariximizə, mədəniyyətimizə, milli-mənəvi dəyərlər sistemimizə çox böyük fayda verib, işıqlı səhifələr açıblar.

Firudin bəy Köçərli Azərbaycan maarifçilik hərəkatının önündə gedən, xalqın övladlarının səadəti naminə şəhidliyini qəbul edən bir şəxsiyyətdir. Bu unudulmaz sima, bu yaddan çıxmaz insan neçə-neçə nəsil sonra da yadda qalaca

### Şuşanın saf qəlbli ziyalısı...

Şuşa Azərbaycan elminə, mədəniyyətinə, ictimai fikrinə çox dəyərli şəxsiyyətlər bəxş edib. İşğal altında olan Şuşa bir zamanlar elm, mədəniyyət, musiqi ocağı kimi səs salırdı, onun yetirmələri dünyada məşhur idi.

Firudin bəy Əhməd bəy oğlu Köçərli 26 yanvar 1863-cü ildə Şuşada anadan olub. 1920-ci ildə isə Gəncədə faciəli şəkildə şəhid edilib. Represiyaya ilk məruz qalan ziyalılardan olub.

«Vikipediya» Açıq Ensiklopediyasının yazdığına görə,

Firudin bəy Köçərli görkəmli Azərbaycan maarifçisi, pedaqoq, metodist, ədəbiyyatşünas, publisist kimi böyük xidmətlər göstərib:»Firudin bəy Köçərli (Köçərlinski) 1876-cı ildə Şuşadakı rus məktəbinə daxil olur. 1878-ci ildə Aleksey Çernyayevski Zaqafqaziya Müəllimlər Seminariyasına tələbə toplamaq məqsədilə bu məktəbə gəlir və bu yolla Firudin bəy öz taleyini seminariya ilə bağlayır. 1879-1885-ci illər ərzində o burada təhsil alır, 1895-1918-ci illər ərzində dərs deyir. 1885-ci ildə qısa müddət Firudin bəy İrəvan Gimnaziyasında da dərs deyir. 1910-cu ildə Qori Seminariyasının Azərbaycan şöbəsinin müvəqqəti təlimatçısı təyin olunur, 1918-1920-ci illərdə onun təşəbbüsü ilə həmin seminariyanın əsasında açılan Qazax Müəllimlər Seminariyasının müdiri işləyib».

### Gəncə üsyanının qurbanlarından biri...

Gəncə üsyanı çox ailələrə bəla gətirdi. Bu üsyanın qurbanlarından biri də böyük vətənpərvər ziyalı, maarifçi Firudin bəy Köçərli idi. Firudin bəy Gəncə üsyanı yatırıldıqdan sonra XI Ordunun xüsusi şöbəsi tərəfindən 1920-ci ildə, əlli səkkiz yaşında güllələnərək dünyasını dəyişir. «Vətən dilinin» I hissəsinin (VII nəşr) yenidən işlənməsində Firudin bəy Köçərlinin xidmətləri böyükdür. O, 300-dən artıq dərsliyə düzəliş edib, nəzəri materialı, hekayələri artırıb, metodika və stilistikasını dəyişdirərək zənginləşdirib. Köçərlinin «Darı və buğda» əsəri «Vətən dilinə» salınıb. Qeyd etmək lazımdır ki, həyat yoldaşı Badisəba xanım Vəkilovlar nəslinə mənsub idi.

### 151 yaşlı Firudin bəy

2013-cü ildə Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi, tanınmış maarifpərvər, ictimai xadim, publisist-yazıçı, tənqidçi və tərcüməçi Firudin bəy Əhməd ağa oğlu Köçərlinin anadan olmasının 150 illiyi tamam oldu.

Yazılı mənbələrdə qeyd olunur ki, 1886-cı ildə 23 yaşlı gimnaziya müəllimi Firudin bəy Köçərli İrəvanda teatr tamaşası təşkil edir. Qori Seminariyasının məzunu Firudin bəy Köçərli 1885-ci ildə İrəvana gəlib və həmin tamaşa-Mirzə Fətəli Axundovun (Axundzadə) «Müsyö Jordan və Dərviş Məstəli Şah» komediyasının nümayişi İrəvan əhalisinin həyatında böyük mədəni hadisəyə çevrilir. Lakin Firudin bəy Köçərli 1895-ci ildə İrəvanı tərk edib. Bundan sonra teatra 18 yaşlı Yunis Nuri rəhbərlik edib. 1945-ci ilə kimi-düz 50 il bu vəzifəni daşıyan Yunis Nurinin də xidmətləri teatrın unudulmaz səhifələrindəndir.

### Firudin bəyin qətl fərmanını kimlər hazırlayıb?

Tarixi mənbələr yazır:»Liberman kabinetinə qayıdıb yanından heç vaxt ayrılmayan, milliyyətcə erməni olan, kimə və nəyə, hansı ideala qulluq etdiyi bəlli olmayan Sarkis Danilyanın diktəsilə Firudin bəy haqqında saxta hökm yazdı:

4 iyun 1920-ci il, Gəncə: «Mən, iyirminci diviziyanın xüsusi şöbəsinin hərbi müstəntiqi bu gün Firudin bəy Köçərlinskinin əksinqilabçı kimi ittihamnaməsi üzrə işinə baxaraq və Qazax İnqilab Komitəsinin ona verdiyi xasiyyətnaməni nəzərə alaraq bildirirəm ki, müttəhim Köçərlinski özünün hakimiyyətindən və böyük səlahiyyətindən istifadə edərək zəhmətkeş xalqa zorakılıq göstərib. Köçərlinski Qazaxda Müsavat Partiyasının sədri olarkən millətçilik ehtiraslarını qızışdırıb. Nəticədə qonşu millətlər arasında toqquşmalar baş verib. Onun verdiyi izahat heç də inandırıcı deyil... Müttəhim Köçərlinskinin şahidlərin dindirilməsi haqqında ərizəsini nəticəsiz qoymaq (rədd etmək) lazımdır. Onun gələcəkdə azadlıqda qalması Qazax qəzasında əksinqilabi hərəkatın baş verməsinə, fəhlə və kəndlilərin günahsız olaraq qanlarının tökülməsinə səbəb ola bilər». Qərara alınır: müttəhim Köçərlinski güllələnsin. Təsdiq edirəm: 7 nömrəli Xüsusi bölmənin rəisi Liberman Təsdiq edirəm: Fövqəladə komissar H.Sultanov».

Görün, nə qədər təsirli bir hadisədir. Görün, kimi kimlər ittiham edib. Cinayətkarın cinayət törətməyən, ümumiyyətlə, cinayətin nə olduğunu bilməyən şəxsiyyətə ittiham irəli sürməsi gülüncdür. Tarix kimin kim olduğunu artıq sübut edib. Onun ölümünə fərman verənlər tarixin qaranlıq zirzəmisində əbədi susmağa məhkum edilib, əsl ziyalı, vətənpərvər maarifçi Firudin bəy Köçərli isə xalqın, dövlətin ürəyində bir məşəl kimi yanır və yaşayır.

Bu gün görkəmli maarifçi, pedaqoq, ədəbiyyatşünas və publisist Firudin bəy Köçərlinin anadan olmasından 151 il ötür.

### Şuşanın əsrarəngiz təbiəti və bənzərsiz şəxsiyyətləri

Firudin bəy Köçərli öz zəmanəsinin ləyaqətli şəxsiyyəti olduğu kimi günümüzün də qiymətli ziyalıları sırasında özünə böyük yer tutur.

Bu böyük insanla bağlı mətbuatda gedən yazılarda qeyd edilir:»XIX əsrin ortalarında Azərbaycanın, o cümlədən Şuşanın mədəni həyatında böyük yüksəliş var idi. Məşhur ədəbiyyatşünas alim Firudin bəy Köçərli Şuşanı «Zaqafqaziyanın Şirazı» adlandıraraq Azərbaycan ədəbiyyatı kitabında yazıb: «Şuşa şəhərinin ab-havasının təsirindən və torpağının bərəkətindən burada çox zürafə, üdabə və şüarə vücuda gəlib. Belə ki, Şuşa qalası Zaqafqaziyanın Şirazı mənzərəsindən olub, ərbabi-zövqü səfa və əhli-hal və sahibi-dil yatağı hesab olunur».

Mənbələrdə o da yazılır ki, XIX əsrin 40-cı illərindən Şuşanın mədəni həyatında xeyli yüksəliş baş verir. Yerli camaatın teatr tamaşalarına meyli yüksəlir. Qafqazda ilk teatr 1845-ci ildə Tiflis şəhərində tamaşaya qoyulur. O vaxtlar Şuşa ilə Tiflis şəhərləri arasında çox güclü ticarət və mədəni əlaqələr var idi. Şuşada isə ilk tamaşa 1848-ci ildə səhnələşdirilir. Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundovun Azərbaycan dilində yazdığı ilk pyeslər bundan sonra mütəmadi olaraq Tiflisdə, Bakıda və Şuşada tamaşaya qoyulmağa başladı. 1870-ci ildə ilk dəfə olaraq Şuşada Azərbaycan teatr sənətinin yaradıcısı Mirzə Muxtar tərəfindən Azərbaycan dilində tamaşa göstərildi. O dövrdə gənc müəllimlərdən Firudin bəy Köçərli, Bədəlbəy Bədəlbəyov, Əbdürrəhim bəy Haqverdiyev, Həsən bəy Vəzirov və məşhur xanəndə Cabbar Qaryağdıoğlu bu tamaşada iştirak ediblər. Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin «Leyli və Məcnun poeması əsasında Məcnun Leylinin qəbri üstündə səhnəsini musiqili tamaşa kimi 1897-ci ildə Şuşada Cabbar Qaryağdıoğlunun iştirakı ilə Əbdürrəhim bəy Haqverdiyev tamaşaya qoyub. O vaxt 12 yaşlı Üzeyir bəy Hacıbəyovun bu tamaşadan aldığı təəssüratlar gələcəkdə «Leyli və Məcnun» operasının yaranmasına öz təsirini göstərib.

### Qüdrətli ədəbiyyatşünas, folklor tədqiqatçısı...

Firudin bəy Köçərli irsini araşdıran alimlərdən biri

SDU-nun «Folklorşünaslıq» elmi-tədqiqat laboratoriyasının rəhbəri Şamxəlil Məmmədovun alim haqqında yazdığı məqalədə qeyd edilir:»Azərbaycan ədəbiyyatşünaslığı və pedaqoji fikri tarixində məşhur «Azərbaycan alimi, tənqidçi və pedaqoqu» kimi dəyərləndirilən Firudin bəy Köçərli tərəqqipərvər elm və ədəbiyyat xadimləri sırasında xüsusi yer tutan şəxsiyyətlərdəndir. Firudin bəy Köçərlinin ölümündən sonra onun Azərbaycan ədəbiyyatına dair topladığı materiallar 1925-1926-cı illərdə «Azərbaycan ədəbiyyatı tarixi materialları» adı altında nəşr olunub. 1978-ci ildə professor Əziz Mirəhmədovun redaktorluğu ilə R.Qənbərqızı Firudin bəy Köçərlinin elmi irsini iki cild şəklində «Azərbaycan ədəbiyyatı» adı ilə çapa hazırlayıb. Firudin bəy Köçərlinin «Azərbaycan ədəbiyyatı» əsəri «Azərbaycan ədəbiyyatşünaslıq elminin tarixində görkəmli yer» tutan, «Azərbaycan ədəbiyyatşünaslığında ilk və mötəbər mənbələrdən biri» (B.Nəbiyev) kimi dəyərləndirilir. Firudin bəy Köçərli Azərbaycan folklorşünaslığında da xüsusi xidmətləri olan şəxsiyyətlərdəndir. Mütəxəssislərin də təsdiqlədikləri kimi, folklorşünaslığın yaranması şifahi xalq ədəbiyyatının toplanması, sistemləşdirilib nəşr olunması ilə bilavasitə bağlıdır. Bu sahədə tarixi xidmətləri olan E.Sultanov, M.Mahmudbəyov, İ.Məhərrəmzadə, A.Şaiq və başqalarının adları-soyadları sırasında Firudin bəy Köçərlinin özünəməxsus yeri var. Azərbaycan ədəbiyyatı tarixinin bu yorulmaz və vətənpərvər tədqiqatçısı bir ədəbiyyatşünas kimi araşdırmalarına folklor nümunələrini yazıya almaqla başlayıb. Qədim musiqi mədəniyyətimizin beşiyi olan Qarabağda, Şuşada dünyaya göz açmış Firudin bəy Köçərli el sənətini dərin vətəndaşlıq hissi ilə sevərək qədrini bilib, şifahi ədəbiyyatı itib-batmaqdan, unudulmaqdan qorumağı vacib hesab edib. Bunun üçün böyük maarifçi-pedaqoq və ədəbiyyatşünas toplayıcılıq işinə başlayıb, Aşıq Valehin şeirlərinin, o cümlədən onun məşhur vücudnaməsinin, xalq bayatılarının, uşaq folkloru incilərinin bir qisminin öz dövrünün mətbuatında, oxu kitablarında çapına çalışıb. O, 1912-ci ildə topladığı folklor nümunələrinin «Balalara hədiyyə» adı ilə toplu şəklində nəşrinə nail olub».

### Balaları unutmayan dahi

Ş.Məmmədovun yazdığına görə, «Balalara hədiyyə» kitabına daxil edilən şifahi ədəbiyyat nümunələrinin mövzuca milli, formaca sadə, ideya-məzmunca tərbiyəvi və təsirli olması tələbini nəzərə alan Köçərli bir pedaqoq kimi inanırdı ki, bu toplunu oxuyacaq «balalar şadlanacaq, bu səbəbə ki, onda dərc olunan əsərlərin cümləsi onların dünyasındandır, təbiətlərinin iqtizasına müvafiqdir».

Şamxəlil Məmmədovun qeydləri:»Kitabın ön sözündəki aşağıdakı fikirlər bu gün də öz ədəbi-etik, bədii-estetik dəyərini saxlamaqdadır. Bəllidir ki, hər bir uşaq ədəbiyyatı nümunəsi həm də böyüklər üçün də maraq dairəsindədir. Firudin bəy bunu bir pedaqoq və ədəbiyyatşünas kimi həssaslıq və peşəkarlıqla belə dəyərləndirib: «Böyük adamların ürəklərinin açılmağına səbəb olacaqdır ki, onlar mütaliə əsnasında öz uşaqlıq vaxtlarını ixtiyarsız xatırlarına götürəcəklər. Bu isə, yəni qəlbi şad etmək, özlüyündə bir xidmətdir». Əməkdar elm xadimi Paşa Əfəndiyev «Azərbaycan folklorşünaslığının tarixi» adlı irihəcmli dərs vəsaitində yazır: Firudin bəy Köçərli məşhur ədəbiyyat tarixçisidir. Bütün məşhur ədəbiyyat tarixçiləri kimi, o da ədəbiyyat tarixinin məhz şifahi xalq yaradıcılığından başlandığını çox yaxşıca bilirdi».

Ardı var...

**İradə SARIYEVA**

**Yazı Azərbaycan Respublikasının Prezidenti Yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**